# «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli, 695 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 2 iyun tarixli, 619-IIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli, 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 12, maddə 1245) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə»nin 9.11-ci bəndində *«və mexaniki (kənd təsərrüfatı üçün nəzərdə tutulan tırtıllı mexaniki vasitələr istisna olmaqla)»* sözləri *«nəqliyyat vasitələrinin, həmçinin qanunvericiliklə müəyyən edilmiş nəqliyyat vasitələri istisna olmaqla, mühərrikinin işçi həcmi 50 kub/sm-dən az və konstruktiv maksimal sürəti saatda 50 kilometr və daha az olan digər mexaniki»* sözləri ilə əvəz edilsin.

2. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 28 oktyabr 2008-ci il***

***№ 8***